# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM İNKİŞAFININ PROSESLƏR MƏCMUSUNUN TƏKMİNLƏŞDİRİLMƏSİ

**Vidadi Axundov**

*ADNSU, İqtisad üzrə fəlsəfə doktoru, dosent*
*Yadulla QABİLOV,*
*BDU, II kurs magistrantı*
*ygabilov@gmail. com*

**Xülasə**

*Azərbaycan Respublikasında turizm inkişafının proseslər məcmusunun təkminləşdirilməsi məqsədinin hayata keçməsində əsas rol oynayan göstəricilərin daqiqləşdirilməsi, dövlət və sahibkarların bu prosesdə iştirakının artirilması nəticəsində ölkə turizminin inkişafi yüksələcək və dünya bazarında turizm tələbatın artacağı bir sektora çeviriləcək. Bu prosesin nəticəsi ölkəyə gələcək turistlərin xərclədikləri pul vəsaiti dövlətə xarici valyutanın daxil olmasına və ölkədə fəalyyət göstərən sahibkarların gəlirləri artacaq və bunun nəticəsində iş yerlərinin sayının artması əhalinin rifah səviyyəsini artirəcaqdır.*

***Açar sözlər:*** *turizmin inkişafı, turizm sektoru, ölkə iqtisadiyyatı, turizm zonası, marketinq strategiyası.*

Turizm dünya iqtisadiyyatında əsas yer tutmaqla birlikdə ölkələrin iqtisadiyyatına birbaşa təsir göstərməkdədir. Respublikamızın qeyri-neft sektorunun inkişafında turizm əsas sahələrdən birinə çevrilib. Azərbaycan Respublikasının Prezdenti sərancamı ilə 2011-ci ili "Turizm ili" elan etməsi Azərbaycanda turizmin inkişafına ayrılan diqqəti göstərmişdir. Qədim dövrlədən bugünə kimi gəlib çatan zəngin tarixi irsi və əlverişli təbiətə malik olan Azərbaycan turizm sahəsində böyük inkişafa malikdir. Ölkəmiz turizmin müxtəlif növlərinin inkişafı üçün geniş imkana sahibdir. Həmçinin turizmin inkişafı üçün münbit şərait yaradılmış, turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş və milli turizmin rəqabət qabiliyyətliyi yüksəldilmişdir. Azərbaycan Respublikasının Prezdentinin imzaladığı sərancam əsasında "Azərbaycan Respublikasında 2010 — 2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı»nın təsdiq olunması [2] ölkədə bu sektorda uğurlu işlərin aparılması ilə nəticələndi. Bu sərancamın təsiri nəticəsində turizm sektorunda rastanan problemlərin həll edilməsi və bu sahənin inkişafında əhəmiyyətli rol oynamışdır. Dövlət Proqramında yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən turizm sektorunun formalaşdırılması, ölkə iqtisadiyyatının əsas istiqamətlərindən birinə çevrilmə-

sinə köməklik göstərmişdir. Turizm öz inkişafına görə qeyri-neft sahələri üzrə aparıcı sahələrdən biridir. Azərbaycanda turizmin inkişaf dinamikası sürətlə inkişaf edir. Turizmin ölkə iqtisadiyyatının aparıcısı sahələrindən biri olması Azərbaycan Respublikasının ən mühüm öhdəlik olaraq qarşısında durur.

Artıq neçə illərdir ki, Azərbaycan turizmi beynəlxalq seviyyəli sərgilərdə öz turizm potensialını nümaiş etddirir. Azərbaycan Respublikasının Prezdenti tərəfindən 2011-ci ilin "Turizm ili" elan oluması və bununlada beynəlxalq turizm sərgilərdə iştirakına görə öz turizm potensialını nümayiş etdirməyinə böyük töhvələri olmuşdur. Son illərdə iştirak edilən sərgilərə: İspaniyanın paytaxtı Madriddə keçirilmiş 42-ci illik Beynəlxalq FITUR-2022 turizm sərgisi, İngiltərənin paytaxtı Londonda keçirilən "World Travel Market -2022" sərgisi, Qətərin paytaxtı Dohada keçiriləcək "Qatar Travel Mart 2021" beynəlxalq turizm sərgisi v. s göstərmək olar. Sərgilərdə Azərbaycana aid olan güşədə turizm məhsulları nümayiş etdirilir. Nümayiş etdirilən materiallar arasında turizm imkanları, turizm zonaları, mədəniyyət və tarixi ilə yanaşı Azərbaycan haqqında kitablar və bukletlər nəşr edilərək sərgi iştirakçılarına təqdim olunur. Turizm idarəçiliyinin müasir şəraitdə təkminləşmə istiqamətlərinə nəzər yetirdikdə belə bir qənaətə gələ bilərik ki, turizmin idarə edilməsi kompleks sistemli məqsədyönlü fəaliyyət dairəsinə malikdir. Turizm idarəçiliyi turistlərin motivasiyasına əsasən qurulur və hər bir turist obyektində turistlərin rəyi, seçimi öyrənilir, onların özlərinin xarakteristikası, hansı ölkədən gəldikləri, turist müddəti və turistlərin sosial-demoqrafik tərkibi, sosial statusu turist tələbatı ilə müqayisə olunur və idarəetmədə aparıcı motiv seçilir. Turizm potensialı hər bir nəfərə düşən şəraitin, maddi xərclərin, kadrların sosial xarakterləri ilə öyrənilir və onların arasında əmək bölgüsünü formalaşdırır. İdarəetmənin səmərəli istifadəsi cari və perspektiv resursların istifadəsi və onların ehtiyatlarının artımı ilə müəyyənləşdirilir. Ehtiyatlar əvvəlcədən plana uyğun olaraq, turistlərin sayı və hər bir tuistə düşən maddi, maliyyə, əmək məsrəflərini formalaşdırılır.

Turizmin qlobal problemləri onun makroiqtisadi nöqteyi-nəzərdən, ölkə iqtisadiyyatına xüsusilə bağlıdır. Məsələn, investisiya mühiti, qida təhlükəsizliyi, ölkənin təhlükəsizliyi, sahibkarlıq mühiti, qanunvericilik bazası, turizmin region üzrə yerləşməsi straregiyası, təbii-coğrafi şəraitin üstünlüyü və onlardan istifadənin zəruriliyi makroiqtisadi problemlər və təkmilləşmə tələb etməkdədir. Makro səviyyədə turizmin problemləri və istiqamətləri planlaşma ilə bağlıdır, daha çox marka planlaşmasına üstünlük verilir və biznes planları tutulur. Sosial prioritetlət və kommersiya maraqları üst-üstə düşəndə əlverişli şərait yaranır, davamlı, tarazlı inkişafda, büdcə gəlirlərinin formalaşmasında və vergi daxilolmalarının həmçinin artımında mühüm rol oynayan turizm sektorunda zəruri infrastrukturun formalaşdırılması son illər hökumət üçün prioritet məsələlərdən birinə çevrilmişdir.

Azərbaycanda turizm sahəsində mövcud olan geniş imkanlar ölkəmizin bir sıra beynəlxalq təşkilatlarla turizmin inkişafı istiqamətində əməkdaşlıq etməsinə şərait yaratmış və son illər Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətlər beynəlxalq təşkilatlar və maliyyə qurumlarının hesabatlarında da yüksək qiymətləndirilir. Dünya İqtisadi Forumunun dünya ölkələrinin turizm sahəsində rəqabət qabiliyyətinə görə tərtib etdiyi reytinq cədvəlində respublikamız irəliləyərək 71-ci pillədə qərarlaşıb. Ümumdünya Turizm Təşkilatı Azərbaycanda turizmin inkişafını yüksək dəyərləndirmiş və elektron viza sisteminə keçidi rəğbətlə qarşılanıb. Yeni sistemin tətbiqi Azərbaycana turist axınını artiracaq və ölkəmizin turistlər üçün daha sadə və əlverişli viza prosedurunun formalaşmasına imkan verəcəkdir (https://evisa. gov. az/az/). Azərbaycanın turizm imkanlarının xarici ölkələrdə təbliği məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müxtəlif vaxt aralıqlarında İtaliyanın "Classis Assoiation", "İtalian Multimedia Group Sri" şirkətləri, Cənubi Koreyanın "Educational Broadcasting System" dövlət televiziya kanalı, Rusiyanın "Kommersant FM" radiosu və Yaponiyanın "Turistlərin cəlb olunmasına dair GUAM-ın vahid turizm məhsulu" layihəsi çərçivəsində media nümayəndələrinin ölkəmizə press-turları təşkil edilmiş və Bakı şəhərində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Ümumdünya Turizm Təşkilatı və Azərbaycan Turizm Assosiasiyasının birgə təşkilatçılığı ilə "İpək yolunun tamı: kulinariya, mədəniyyət və turizm" adlı beynəlxalq konfrans keçirilmişdir. Nazirlik tərəfindən Azərbaycanın turizm imkanlarının daha səmərəli təbliğatını həyata keçirmək məqsədilə 2014-2016- cı illər üçün marketinq strategiyası hazırlanmış və marketinq strategiyasına uyğun olaraq Azərbaycan 2014-cü ildə bir neçə beynəlxalq turizm sərgisində iştirak etmişdir. Bu ölkələr: Türkiyə, Almaniya, Rusiya, Ukraynada və digər ölkələrdə keçirilən sərgiləri qeyd etmək olar.

Azərbaycanın turizm zonalarının yaradılması məqsədi ilə rayonlarda müxtəlif turist layihələri həyata keçirilir, bölgələrimiz beynəlxalq səviyyədə nümayişlər edilir. Həmçinin "Böyük İpək yolu", "Şərab yolu", "Xalçaçılıq", "Aleksandr Düma Qafqazda" və "Azərbaycanda alman məskənləri" layihələrini qeyd etmək olar. Həyata keçirilən layihələr ölkəmizə gələn turistlərin sayının artırılmasına və çoxçeşidli turizm məhsulunun yaradılmasına xidmət edir və mühüm yeniliklərdən biri də turizm sahəsində elektron xidmətlərin təşkilidir.

Qəbul edilmiş dövlət proqramları, davamlı olaraq həyata keçirilən tədbirlər bu inkişafı şərtləndirən əsas amillərdəndir və 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi nəticəsi olaraq münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair" Dövlət Proqramı qəbul olundu və Bu proqramın başlıca məqsədi ölkədə turizm sahəsinin daha da inkişaf etdirilməsinin təmin olunması, bir neçə istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutulmuşdur. Dövlət Proqramının icra olunması turizm sahəsində normativ hüquqi bazanın yaradılması və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni marşrutlarının yaradılması, turizm sahəsi üçün kadr ha-

zırlığının aparılması, Azərbaycanın milli-tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği və s. istiqamətlərdə həyata keçirilən tədbirlər öz nəticələrini göstərməkdədir.

Turizm marşurutları üzrə nəqliyyat vasitələrinin sayı artırılmalı və yeni nəqliyyat növləri əlavə olunmalıdır. Turistlərə nəqliyyatının müxtəlif növlərindən – qatar, gəmi, avia çarter reysləri, avtobuslar təklif edilməlidir. Nəqliyyat sisteminin inkişafı və ixtisaslaşmış turist nəqliyyatının meydana çıxması və az vəsait sərf etməklə xarici ölkələrə turist səfərlərini daha əlverişli etmişdir. Nəqliyyat vasitələrinin seçimi, turistin gəldiyi ölkənin coğrafi mövqeyindən, turisti göndərən ölkənin hansı məsafədə yerləşməsindən, eyni zamanda turistin sosial vəziyyətindən və onun maliyyə imkanlarından asılı olmaqdadır.

Turizmin basqa növlərinin inkişafı üçün lazım olan investisiyanın cəlb edilməsinə şəraitin yaradılması və bunu nəticəsində ölkənin turizm imkanlarından tam və səmərəli istifadəsinə gətirib çıxaracaqdır. Turizm məhsulları çox çeşitlıdır və dövrün tələblərinə görə her vaxt dövrə uyğunlaşdırılmalı və yeni turizm növlərinin yaranacağını nəzərə alaraq bu dəyişikliklərə qabaqcadan hazırlamaq lazımdır.

Ölkədə həm dövlətin dəstəyi, həm də sahibarkarların köməyi ilə ilin bütün fəsillərinə cavab verən turizm infrastrukturu yaradılmaqdadır və qış turizmi daha da inkişaf edərsə, bu sahibkarların iqtisadi vəziyyətinə müsbət təsir edəcək və bunun nəticəsində inkişaf imkanları artacaqdır. Qış turizminin inkişafı ölkədə turizm obyektlərini fasiləsiz işləməsinə imkan yaradar, il ərzində turistlərin gəlişini təmin edir və bunun nəticəsində ölkəyə valyuta axınının güclənməsinə səbəb olar. Qış turizmi üçün əlverişli olan regionlarda infrastrukturun (yolların, elektrik enerjisi, qaz,su təchizatı, kanalizasiya sistemi) vəziyyəti yaxşılaşdırılmalı, bu sahədə işləmək istəyən yerli və xarici sahibkarlar üçün vergi güzəştləri tətbiq edilməli, nəqliyyat vasitələri xidmət tələblərinə uyğunlaşdırılmalıdır. Avtobus dayanacaqları, metrolar xəritə-sxemlərlə, işarələrlə təmin edilməli, bu məlumatlar xarici dillərdə də mövcud olmalı, köhnə və yararsız nəqliyyat vasitələri istismardan çıxarılmalıdır. Həmçinin xarici dillərdə məlumatların verilməsi də turistlərin şəhər daxilində sərbəst hərəkətini asanlaşdıracaqdır.

Ölkədə turizmin inkişafı üçün dünya səviyyəsində qabaqcıl ölkələrin təcrübəsindən istifadə vacibdir və bu təcrübüyə də qabaqcıl ölkələrin təcrübəsindən istifadə etməklə nail olmaq olar. Həmçinin, sahə üzrə mütəxəssislər yetişdirib onların əməyindən faydalanmaq mümkündür. Tədqiqatlar göstərir ki, Azərbaycan üçün turizmdə ən böyük bazar Rusiya və keçmiş SSRİ respublikaları təşkil edirdi, lakin son dövrlərdə Azərbaycanın turizm təbliğinin və nümayişlərinin sərgilərdə rəğbət qazanması Avropadan, Ərab yarimadasında, Şərqi Asiya ölkələrindən v. s başqa ölkələrdən turist axınını artırmişdir. Statistik məlumatlara diqqət yetirməklə bu məsələ daha aydın başa düşülür.





**Cədvəl 1.** Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərinölkələr üzrə sayı nəfər [5]

| **Ölkələr** | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 2,239,141 | 2,484,048 | 2,508,904 | 2 297 804 | 2,006,176 | 2,248,773 | 2,696,745 | 2 849 592 | 3,170,373 |
| **Ölkələr üzrə** | | | | | | | | | |
| Rusiya Federasiyası | 786,684 | 876,013 | 903,242 | 843,851 | 685,555 | 744,125 | 854,331 | 880,029 | 932,984 |
| Gürcüstan | 573,063 | 763,251 | 810,390 | 699,532 | 571,648 | 506,306 | 538,213 | 610,556 | 725,465 |
| İran | 407,576 | 283,739 | 143,579 | 131,179 | 149,600 | 248,632 | 363,528 | 241,124 | 255,628 |
| Türkiyə | 242,606 | 295,549 | 361,413 | 314,476 | 288,620 | 313,341 | 301,924 | 291,499 | 316,628 |
| Böyük Britaniya | 24,646 | 29,125 | 32,841 | 33,563 | 34,892 | 29,514 | 31,751 | 29,417 | 36,914 |
| Ukrayna | 40,030 | 42,393 | 51,802 | 58,201 | 55,119 | 55,508 | 57,818 | 57,707 | 59,116 |
| Qazaxıstan | 28,225 | 25,295 | 28,226 | 29,468 | 27,145 | 31,994 | 36,360 | 37,824 | 47,551 |
| ABŞ | 11,443 | 13,687 | 15,612 | 14,543 | 13,208 | 12,291 | 15,178 | 17,516 | 18,787 |
| Almaniya | 11,927 | 16,445 | 13,920 | 13,838 | 15,210 | 13,042 | 16,319 | 17,200 | 20,509 |
| Özbəkistan | 14,513 | 18,417 | 18,627 | 19,336 | 15,185 | 16,093 | 18,795 | 18,306 | 23,507 |
| Çin | 6,224 | 5,060 | 6,465 | 5,930 | 5,094 | 7,363 | 10,274 | 15,730 | 25,542 |
| İsrail | 5,671 | 6,369 | 6,989 | 7,534 | 8,325 | 10,814 | 15,385 | 40,158 | 47,056 |
| Türkmənistan | 3,969 | 4,906 | 4,766 | 5,398 | 6,800 | 7,637 | 17,101 | 28,305 | 52,127 |
| Belarus | 5,724 | 7,038 | 8,251 | 9,256 | 10,729 | 12,320 | 13,119 | 13,024 | 14,844 |
| Hindistan | 3,715 | 5,048 | 4,791 | 4,853 | 5,584 | 6,012 | 14,244 | 39,051 | 65,118 |
| Fransa | 4,799 | 5,870 | 5,919 | 6,858 | 6,637 | 5,785 | 6,959 | 7,903 | 9,101 |
| İtaliya | 4,857 | 6,767 | 8,566 | 9,605 | 10,379 | 8,654 | 10,133 | 11,035 | 12,259 |
| Pakistan | 1,743 | 1,675 | 1,767 | 1,817 | 2,193 | 3,998 | 17,579 | 41,307 | 46,602 |
| Koreya Respublikası | 2,461 | 2,829 | 3,134 | 3,368 | 3,061 | 3,132 | 4,642 | 7,854 | 9,415 |
| Kanada | 1,851 | 2,566 | 2,411 | 2,501 | 2,372 | 2,320 | 3,190 | 4,108 | 4,643 |
| Norveç | 1,874 | 1,981 | 2,024 | 2,056 | 1,932 | 1,937 | 2,054 | 2,364 | 2,658 |
| Niderland | 3,026 | 3,970 | 4,036 | 4,425 | 4,714 | 3,764 | 4,703 | 5,892 | 6,104 |

Turizm marşurutları üzrə nəqliyyat vasitələrinin sayı artırılmalı və yeni nəqliyyat növləri əlavə olunmalıdır. Turistlərə nəqliyyatının müxtəlif növlərindən – qatar, gəmi, avia çarter reysləri, avtobuslar təklif edilməlidir. Nəqliyyat sisteminin inkişafı və ixtisaslaşmış turist nəqliyyatının meydana çıxması və az vəsait sərf etməklə xarici ölkələrə turist səfərlərini daha əlverişli etmişdir. Nəqliyyat vasitələrinin seçimi, turistin gəldiyi ölkənin coğrafi mövqeyindən, turisti göndərən ölkənin hansı məsafədə yerləşməsindən, eyni zamanda turistin sosial vəziyyətindən və onun maliyyə imkanlarından asılıdır.

Turizmin basqa növlərinin inkişafı üçün lazım olan investisiyanın cəlb edilməsinə şəraitin yaradılması və bunu nəticəsində ölkənin turizm imkanlarından tam və səmərəli istifadəsinə gətirib çıxaracaqdır. Turizm məhsulları çox çeşitlıdır və dövrün tələblərinə görə her vaxt dövrə uyğunlaşdırılmalı və yeni turizm növlərinin yaranacağını nəzərə alaraq bu dəyişikliklərə qabaqcadan hazırlamaq lazımdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. "Azərbaycanda Turizmin inkişaf problemləri " – F. İ. Qurbanov, Bakı -2007 Adiloğlu nəşriyyatı.
2. «Azərbaycan Respublikasında 2010 — 2014-cü illərdə turizmin inkişafına dairDövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan respublikası Prezidentinin sərəncamı (https://e-qanun. az/framework/19342)
3. Azərbaycan Respublikası Rəsmi Elektron Viza Portalı (https://evisa. gov. az/az/)
4. "Turizmin Əsasları " – Soltanova H. B. və Hüseynova Ş. H. Bakı -2007 Mütərcim nəşriyyatı
5. Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkələr üzrə sayı. (https://stat. gov. az/source/tourism)
6. İsmayılov Ç. N. ,Zeynalova K. Z. "Klaster konsepsiyası və onun regional inkişafda əhəmiyyəti","H. Əliyev və Azərbaycanda coğrafiyanın inkişafı"beynəlxalq konfransın materialları Bakı-2013(səh. 80-82.)
7. "Turizm Fəaliyyətinin Tənzimlənməsi", Bilalaov B. Ə, Bakı -2006, Mütərcim nəşriyyatı, 280 s


**Видади Ахундов, Ядулла Габылов**

## Совершенствование комплекса процессов развития туризма в Азербайджанской республике

### Резюме

***В результате уточнения** основных показателей реализации цели совер-шенствования механизма развития туризма в Азербай-джанской Республике и увеличения участия в этом процессе госу-дарства и предпринимателей, развитие туризма в стране увеличится, а туризм превратится в сектор, который повысит спрос на мировом рынке. В результате этого процесса деньги, потраченные приезжающими в страну туристами, принесут государству иностранную валюту, а доходы дей-ствующих в стране предпринимателей увеличатся, и, как следствие, увеличится количество рабочих мест. повысить уровень благосостояния населения.*

***Ключевые слова:** развитие туризма, туристическая отрасль, экономика страны, туристический назначения, маркетинговая стратегия*

**Vidadi Axundov, Yadulla Gabilov**

## Improving the set of processes of tourism development in the republic of Azerbaijan

### Summary

***As a result** of specifying the main indicators in the implementation of the goal of improving the mechanism of tourism development in the Republic of Azerbaijan, and inc-reasing the participation of the state and entrepreneurs in this process, the development





*of the country's tourism will increase and tourism will be turned into a sector that will increase demand in the world market. As a result of this process, the money spent by the tourists coming to the country will bring foreign currency to the state and the income of the entrepreneurs active in the country will increase, and as a result, the increase in the number of jobs will increase the level of welfare of the population.*

***Keywords:** development of tourism, tourism sector, country's economy, tourist des-tination, marketing strategy.*